Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

Bu məntiqlə Qarabağ üçün statusu zəruri sayanlara ən tutarlı cavab Azərbaycandakı tolerant mühitdir...

İkinci Qarabağ müharibəsi başa çatdı. Azərbaycan Ordusu Ermənistanın işğalçı qüvvələrini öz torpaqlarından çıxartdı. İndi başlıca suallardan biri budur ki, Azərbaycan və erməni icması Qarabağa qayıdıb birgə yaşaya biləcəkmi? Bunun üçün, ilk növbədə, ermənilərin yerli mülki azərbaycanlılara Birinci və İkinci Qarabağ müharibələri zamanı davranışına diqqət edək.

Həmin şəraitdə ermənilər qonşuları olmuş yerli azərbaycanlılarla birgə yaşamaq üçün körpü saxlayıbmı?

Birinci Qarabağ müharibəsi zamanı törədilən vəhşiliklərə rəğmən...

Birinci Qarabağ müharibəsi zamanı erməni quldurları Xocalı soyqırmını törətdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən bu faciəli hadisə nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən, 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil. 1992-ci il aprelin 8-də Kəlbəcərin Ağdaban kəndində törədilmiş soyqırım hadisəsini yada salaq. Erməni separatçılarının törətdiyi qırğında 130 evdən ibarət Ağdaban kəndi tamamilə yandırılmış, kəndin 779 nəfər dinc sakininə müxtəlif növ işgəncələr məruz qalmışdı. 67 nəfər isə amansızlıqla qətlə yetirilmişdi. Bundan başqa 2 nəfər itkin düşmüş, 12 nəfər isə ağır bədən xəsarətləri almışdı. Zəngilanın işğalı zamanı ermənilər yolu bağlayaraq mülki azərbaycanlı sakinlərin rayon ərazisinin tərk etməsinə imkan verməmişdi. Dinc sakinlər erməni silahlılarının vəhşiliklərindən xilas olmaq üçün özlərini Araz çayına atıb İrana keçmişdilər. Çoxlu sayda Zəngilan sakini çayı üzüb keçə bilmədiyi üçün orada boğulub ölmüşdü. 1992-ci il avqustun 28-də erməni silahlıları Goranboyun Ballıqaya kəndinə hücum edərək, bura sığınan Laçın rayonundan olan qaçqınları qətliama məruz qoyublar. Nəticədə 24 dinc laçınlı sakin şəhid olub. Sözsüz, Birinci Qarabağ müharibəsi zamanı ermənilər əllərinə düşən hər fürsətdən dinc azərbaycanlı sakinlərə qarşı istifadə edib, onlara işgəncə verib, qətlə yetiriblər.

Azərbaycan döyüş bölgəsindəki dinc erməni sakinlərinin ərazini tərk etməsi üçün humanitar dəhlizi açıq saxladı

İkinci Qarabağ müharibəsi zamanı da Ermənistan silahlı qüvvələri döyüş bölgəsindən xeyli uzaqda yerləşən şəhərləri raket atəşinə tutub. Gecə saatlarında Gəncənin bombalanmasını, Bərdənin raket atəşinə tutulmasını, Tərtərdə ölüsünü dəfn edən dinc sakinlərin bombardıman olunmasını, Goranboyun, Ağcabədinin, Siyəzənin, Xızının raket atəşinə tutulmasını misal götürmək olar. Ermənilərin dinc sakinləri atəşə tutması nəticəsində 93 dinc azərbaycanlı ölüb, 407 nəfər yaralanıb. Ancaq I və II Qarabağ müharibələrində Azərbaycan hərbçiləri dinc erməni sakinlərə qəsdən xəsarət yetirməyib, mülki obyektləri və yaşayış yerlərini hədəfə almadığını dəfələrlə bəyan edib. Baxmayaraq ki, ermənilər hərbi texnikanı dinc erməni sakinlərinin yaşadığı yerlərdə yerləşdirməklə onları hədəfə çevirmişdilər. Azərbaycan döyüş bölgəsindəki dinc erməni sakinlərinin ərazini tərk etməsi üçün humanitar dəhlizi açıq saxladı. Ümumiyyətlə, Azərbaycan Ordusunun bölgədən qaçanlara hər an zərbə endirmək, onları PUA-larla vurmaq imkanı olsa da, bunu etməyib. Azərbaycanın bu cür humanist davranışı ermənilərin bölgəni rahat şəkildə tərk etməsinə yardım edib.

Deməli, azərbaycanlılar ermənilərlə dinc yanaşı yaşamaq üçün körpüləri yandırmayıb. Bu baxımdan, Azərbaycan tərəfi ermənilərin yerli azərbaycanlılarla dinc yanaşı yaşaması üçün hər cür şəraiti yaradıb.

Azərbaycan tərəfi öz erməni vətəndaşlarına birgə yanaşı yaşamaq üçün ən yüksək səviyyədə təminat verdiyi halda...

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bildirib ki, Azərbaycan vətəndaşı olan dinc ermənilərin Qarabağda azərbaycanlılarla birgə yaşaması üçün heç bir problem yoxdur. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşları ola bilərlər. Bu isə onların hüquqlarının və təhlükəsizliklərinin qorunmasına ən yüksək səviyyədə təminatdır. Azərbaycan tərəfi öz erməni vətəndaşlarına birgə yanaşı yaşamaq üçün ən yüksək səviyyədə təminat verdiyi halda, Ermənistan rəsmiləri bununla bağlı qarşıdurma yaradırlar. Noyabrın 5-də Ermənistanın eks xarici işlər naziri Zöhrab Mnasakanyan ölkəsinin parlamentindəki çıxışında bildirmişdi ki, Qarabağın Azərbaycanın tərkibində gələcəyi yoxdur. Ondan əvvəl Ermənistan prezidenti Armen Sarkisyan da oxşar bəyanatla çıxış etmişdi. Beləliklə, Azərbaycan öz vətəndaşı olan dinc ermənilərin geri qayıtması üçün şərait yaradır. Ancaq əsas məsələlərdən biri də odur ki, silahlı və qonşusu olan ermənidən ziyan görən dinc azərbaycanlı birgə yaşayışı qəbul edəcəkmi? Axı həmin ermənilər qonşusu olan azərbaycanlının evini dağıdıb, yurdunu talayıb. Çox çətin məsələdir. Ancaq mümkünsüz deyil. Fransız, alman və ingilis də bir-birinə qonşudur. Tarixən onlar arasında çoxillik müharibələr olub. Ancaq sonda onlar bir yerdə Avropa İttifaqı kimi möhtəşəm beynəlxalq birliyi yaradıb, dinc şəkildə yaşayırlar. Hazırda onları daha çox iqtisadi maraqlar birləşdirir. Keçmiş düşmənlikləri isə yalnız tarixdə qalıb və unudulmur. Ona görə ehtimal etmək olar ki, ermənilər Qafqazda, o cümlədən Azərbaycanda yaşamaq istəsə, gərək başqa xalqlara düşmən mövqeyindən çəkinsinlər. Törətdiyi soyqırım cinayətlərindən də göründüyü kimi, ermənilərin qonşuları ilə birgə, dinc yaşamaqdan savayı çıxış yolu yoxdur.



Status tələb edən ermənipərəstlərin əsas arqumentlərindən biri də budur ki…

44 günlük Vətən müharibəsi başa çatandan sonra ən çox müzakirə edilən məsələlərdən biri status məsələsidir. Müharibə başa çatdıqdan sonra bu barədə Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə rəsmi mövqe sərgiləməsinə baxmayaraq, nizamlama prosesində iştirak edən ölkələrin rəsmiləri bu məsələ ilə bağlı ilk baxışdan Bakının mövqeyindən fərqli görünən bəyanatlar səsləndiriblər. İlk baxışdan Əliyevin, Paşinyanın, Putinin, Lavrovun, Matvienkonun və Medvedyevin statusla bağlı açıqlamaları tamamilə fərqli görünür. Lakin diqqətlə baxdıqda onların hamısı eyni informasiyanı çatdırır, yalnız bunu bir az fərqli sözlərlə ifadə edirlər. Onlardan heç birinin açıqlaması digərini təkzib etmir, lakin bəziləri İ.Əliyevdən fərqli olaraq, bir qədər bunu yumşaq formada, əsasən də məğlubiyyət sindromundan əziyyət çəkən ermənileri qıcıqlandırmadan səsləndirir. Bütün çıxışları bir yerə toplayıb analiz etsək, nə 9 noyabrda, nə də 10 yanvarda əldə edilən üçtərəfli bəyanatlarda status barədə bir kəlməyə də rast gəlməyəcəyik. Buna əmin olmaq üçün hər bir rəsmi bəyanatı diqqətlə nəzərdən keçirməliyik, bu isə bir qədər zaman tələb edəcək. Bu məsələni dərindən araşdırmadan hadisələrə real qiymət verilməsi mümkün deyil. Status tələb edən ermənipərəstlərin əsas arqumentlərindən biri də budur ki, güya bu addımın atılması Qarabağda ermənilərlə azərbaycanlıların birgə yaşamasının "mümkünsüzlüyü" baxımından zəruridir. Ancaq bu arqumentlər olduqca cılız görünür. Çünki Azərbaycan işğalın davam etdiyi ən çətin dönəmlərdə belə öz ərazisində yaşayan 30 minə yaxın erməni əsilli vətəndaşının təhlükəsizliyinə təminat verib.

Azərbaycan öz daxilində Qarabağa muxtariyyət təklif etmək fikrindən müharibənin başlaması ilə daşınıb

Prezident İlham Əliyev noyabrın 6-da "BBC News"a müsahibəsində birgəyaşayışın mümkünlüyü ilə bağlı məsələyə aydınlıq gətirib. Sitat:

"Nəyə görə onlar dünyanın digər yerlərində birgə yaşaya bilirlər? Siz qonşu Gürcüstanda ermənilərin və azərbaycanlıların bir yerdə, eyni kənddə yaşadığı kəndlərin olduğunu bilirsiniz? Onlar Rusiyada, Ukraynada bir yerdə yaşayırlar, onlar Azərbaycanda bir yerdə yaşayırlar, dünyanın bir çox digər yerlərində. Dünyadakı vəziyyəti indi müşahidə etsəniz, Qərbdə bəzi ermənipərəst mitinqlərdən başqa ermənilər və azərbaycanlılar arasında vəziyyət sakitdir. Nəyə görə onlar orada yaşaya bilərlər, lakin burada yaşaya bilməzlər?"

Nəticə etibarı ilə yazılanlardan belə çıxır ki, Azərbaycanın status məsələsini rədd etməsi tam anlaşılandır və doğru addımdır. Bu barədə müxtəlif siyasətçilər çox bəyanatlar səsləndirə bilər, lakin bu müzakirələr mümkün deyil. Azərbaycan öz daxilində Qarabağa müxtariyyət təklif etmək fikrindən müharibənin başlaması ilə daşınıb, ermənilər də bu təklifi əvvəllər dəfələrlə rədd ediblər, artıq bu təklifi Bakıda səsləndirən də yoxdur. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkədir. Ölkəmizdə ayrı-ayrı etiqad və inanclara malik etnosların min illərlə əminamanlıq şəraitində yaşamasında, etnik mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanmasında Azərbaycan xalqına xas olan humanizm və çoxmillətlilik dəyərlərin müstəsna rolu vardır.

Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti milli siyasətin məntiqi nəticəsidir

Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədir. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Bu nümunə kifayət edir ki, Qarabağdakı ermənilər heç bir status olmadan bərabərhüquqlu Azərbaycan vətəndaşı kimi öz haqlarından istifadə edərək, ölkəmizin yaratdığı tolerant və mültikultural mühitdən bəhrələnərək yaşasınlar.

Məhəmmədəli QƏRİBLİ

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.